# Bir Ömrün Qonaqları

**Məmməd Araz**

© Seçilmiş əsərləri. 2003

Qapım döyülür.
—Ey kimsən?
—Xatirəyəm.
Mən.
Məktub gətirmişəm ilk məhəbbətdən.
(Mətbəxdə qəzəbli qadın görünür.
O, məktub əlində qapıdan dönür.)
Qapım döyülür.
—Ey kimsən?
—Tərifəm!
—Buyur!
—İçkin var?
—Yoxumdur!
—Onda yaz!
—(Ayağa durur).
Taq-taq.
—Ey kimsən?
—Mənəm, aç,—
Ehtiyac!
—Nə xəbər, çoxdandır yoxsan?!
—Deyən az gələndə çox darıxırsan?
Taxçanı boşaldın,
Boxçanı boşaldın…
Qonşun beş adamın maaşın alır…
O var, e… filankəs… o maşın alır.
—Sən Allah qoy yazaq!..
Yenə də taq-taq…
—Ey kimsən?
—Son xəbər qağandır!—
Dağılıb qurtarmır bu dünya andır:
Əsrimiz diplomat əsdirir, baba!
Dillərdə sülh gəzir, ciblərdə bomba…
Turdan adlamadın… dostun var orda…
Dünən iki şerin batdı nobarda.
—Qoyun nəfəs alım, ay aman nəfəs…
Yenə bir qapını döyürdü bir səs,
—Ey kimsən?
—Şöhrətəm!

—Buyur, sizə kim…
—Məmməd İbrahim…
—Qardaş, gecikmisən,
—O burda yaşamır!
—Harda yaşayır?
—Yaxında, üstündə bir qız ağlayan
Qəbir var—
Orda yaşayır…

1966

---

Veb direktor: Betti Bleyer
Mətni yığdı: Səkinə İsgəndərova
Veb üçün hazırladı: Ülviyyə Məmmədova
AZERİ.orga qoyuldu: may, 2004